*Fərhadi Püstə Oruc qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti,*
*Email: emin.turant1@gmail.com*

# AQRAR SEKTORDA RƏQƏMSAL MÜHİTİN İNKİŞAFINDA ÖZÜNÜMƏŞĞULLUĞUN İNKİŞAF PERSPEKTİVLƏRİ

Aqrar sektorda iqtisadi fəallığın və kənd ərazilərində məşğulluq səviyyəsinin yüksəldilməsi amili kimi özünüməşğulluq problemlərinin həlli yüksək ehtimalla mövcud potensialın reallaşdırılması imkanlarından asılıdır. Həmin imkanların aqrar sektorda özünüməşğulluğun perspektivlərinə təsirinin tədqiq olunması məqsədəuyğundur. Aqrar sektorda özünüməşğulluğun kənd yerlərində iqtisadi fəallığa təsirinin araşdırılması və özünüməşğulluğun inkişaf perspektivlərinə münasibət bildirilməsi məsələləri gündəlikdədir. Eyni zamanda nəinki aqrar sektorda, ümumiyyətlə iqtisadi fəaliyyətin hər hansı istiqamətində özünüməşğulluğun inkişaf imkanları və perspektivləri kifayət

qədər tədqiq olunmamışdır. Aqrar sektorda özünüməşğulluğun perspektivlərinin dövlət məşğulluq siyasətindən birbaşa asılılığı kənd yerlərində işgüzar fəallığın yüksəldilməsi üçün mövcud imkanlara diqqəti artırır. Məqalədə aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivlərini şərtləndirən əsas amillərin və onların təsirinin səciyyələndirilməsi məqsədi qarşıya qoyulmuşdur. Araşdırmanın gedişində müşahidə, müqayisəli təhlil, ümumiləşdirmə, ekspert qiymətləndirməsi və sintez metodlarından istifadə edilmişdir.

Kənd yerlərində özünüməşğulluq imkanları Aqrar sektorun milli iqtisadiyyatda oynadığı mühüm rol həlledici dərəcədə kənd əhalisinin iqtisadi fəallığı ilə bağlıdır. Kənd yerlərində məşğulluğun məqbul səviyyəsinin təmin edilməsi məlum olduğu kimi, böyük və orta şəhərlərə nisbətən daha çətindir. Odur ki, kənd yerlərində məşğulluğun səviyyəsinin yüksəldilməsi baxımından alternativlər axtarışı daim gündəlikdə olmalıdır. Özünüməşğulluğun xüsusilə kənd təsərrüfatına aid olan sahələrdə təşviqi kəndlərin inkişaf perspektivi baxımından mühüm əhəmiyyətə malikdir. Haqqında danışılan təşviq mexanizminin hətta immiqrantlara aid edilməsi hallarına da rast gəlinir (1). Aqrar regionlarda məşğulluğun strukturunda baş verən dəyişikliklərdə dayanıqlı inkişaf meyarlarına uyğunlaşma tələbləri get-gedə daha da ciddiləşir. Bu baxımdan kənd təsərrüfatında məşğulluq və özünüməşğulluğun strukturu və dinamikasına diqqət artırılmalı, müvafiq elmi təminatın gücləndirilməsi tədbirləri daha fəal surətdə həyata keçirilməlidir.

Aqrobiznes mühitinin dəstəklənməsinə yönəlmiş tədbirlər, kənd təsərrüfatında istehsal və xidmət fəaliyyətlərinin şaxələndirilməsi özünüməşğulluq üçün fəaliyyət dairəsini genişləndirir. Təsadüfi deyildir ki, Qərb elmi mərkəzləri tərəfindən özünüməşğulluğun və fərdi sahibkarlığın 400-dən artıq növü tövsiyə olunur (2). Şaxələndirmə imkanlarından istifadənin səmərəliliyi milli aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivlərinin müəyyənləşdirilməsi zamanı hərtərəfli əsaslandırma tələb edir. Aqrar sektorda və ümumilikdə kənd yerlərində özünüməşğulluğun inkişafının tempi və proporsiyalarının optimallaşdırılması qabaqcıl təcrübədən göründüyü kimi, olduqca perspektivli istiqamət olmaqla yanaşı, eyni zamanda çox sayda və müxtəlif amillərin təsirlərinin nəzərə alınmasını tələb edir. Kənd əhalisinin demoqrafik davranışı araşdırmalardan və təcrübədən aydın olduğu kimi, aqrar regionlarda əmək bazarının konyunkturuna ciddi surətdə təsir göstərir. Özünüməşğulluq potensialının formalaşması və fəallaşdırılmasına gəldikdə isə burada əhali qruplarının gəlir, təhsil, karyera motivləri və bir sıra digər əlamətlər üzrə təsnifatda öyrənilməsi zərurəti meydana çıxır. Özünüməşğulluğun inkişafını şərtləndirən əsas amillər qismində əhalinin artım tempində, əmək ehtiyatlarının keyfiyyətində və kəmiyyətində baş verən dəyişikliklər, habelə milli təhsil sisteminin kəndin və kənd təsərrüfatının ehtiyaclarına uyğun kadr hazırlaması imkanları qeyd edilməlidir. Bu baxımdan təqdim etdiyimiz məlumat zənnimizcə, diqqətəlayiqdir: "BMT-nin orta ssenari proqnozuna əsasən, Azərbaycan əhalisinin ümumi artımı növbəti illərdə davam edəcək və 2030-cu ildə 10,7 milyon nəfərə çatacaqdır. Əmək bazarına daxil olan 15-24 yaş arasında şəxslərin sayında azalma meylinin 2025-ci ilədək davam edəcəyi, ondan sonrakı beş ildə isə artacağı proqnozlaşdırılır. 2017-ci ildə Azərbaycanda 15-24 yaş arasında şəxslərin sayı 1,5 milyon nəfərə yaxın olmuşdursa, 2025-ci ildə bunun hazırki saydan 17 faiz az olacağı, sonrakı illərdə isə artaraq 2030-cu ildə 2015-ci ilin səviyyəsinə (1,6 milyon nəfərə) çatacağı proqnozlaşdırılır" (3, 2.1 alt bölməsi).

Hesab edirik ki, Azərbaycanın əmək bazarına daxil olan 15-24 yaş arasında şəxslərin dinamikasında gözlənilən güclü tərəddüdlər kənd təsərrüfatı əməyinin nüfuzunun yüksəldiləcəyi halda ciddi fəsad törətməyə bilər. Layiqli əmək şəraiti yaradılmış aqrar və aqrar-sənaye müəssisələrinin təcrübəsi göstərir ki, belə iş yerləri gənclər və fəaliyyət sahəsini müəyyənləşdirən yeniyetmələr üçün cəlbedicidir. Kənd yerlərinin inkişafına və aqrar sahəyə himayəçilik baxımından dövlətin mövqeyi yaxın perspektivdə aqrar sektorun əksər qurumlarında layiqli əmək şəraiti yaratmağa imkan verir. Əlbəttə, bu proses öz-özünə baş verməyəcəkdir. Rəqabətqabiliyyətli aqrar (Agricultural Economics), (Kənd təsərrüfatının iqtisadiyyatı), (Экономика сельского хозяйства - 2021, № 3 (37) 102) fəaliyyətin müasir dövrdə həlledici amil olduğunu dərk edən hər bir sahibkar və özünüməşğul subyekt dövlətin yaratdığı əlverişli işgüzarlıq mühitindən fayda götürməyə çalışacaqdır. Hazırda Azərbaycanın kənd yaşayış məntəqələrinin dayanıqlı inkişafı perspektivləri əhali, mentalitet, ekoloji böhran və onun şəhərlərdə özünü daha kəskin şəkildə göstərməsi, urbanizasiyanın arzuolunmaz əlamətlərinin güclənməsi, COVID 19 pandemiyası kimi amillərin təsiri altında formalaş-maqdadır. Kənd təsərrüfatının aşağı gəlirliliyi və dünyada mövcud olan "fermer problemi" kimi amillərin neqativ təsirinin məhz yuxarıda qeyd olunan amillərin təsiri nəticəsində zəifləyəcəyi gözlənilir. Bununla belə, unutmaq olmaz ki, kənd təsərrüfatında əmək məhsuldarlığının faktiki səviyyəsi, burada vəziyyətin az zamanda yaxşılaşacağı barədə xüsusi nikbinliyə əsas vermir. Məsələ ondadır ki, "2016-cı ildə mədənçıxarma sənayesi üzrə əmək məhsuldarlığı göstəricisi cari qiymətlərlə 257,7 manat (161,4 ABŞ dolları) olduğu halda, kənd təsərrüfatı üzrə bu göstərici 1,03 manata (0,6 ABŞ dolları), emal sənayesi üzrə 6,3 manata (3,9 ABŞ dolları), tikinti sahəsi üzrə isə 9,4 manata (5,8 ABŞ dollarına) bərabər olmuşdur" (3, 2.2 alt bölməsi). Bir sözlə, aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivləri sahədə əmək məhsuldarlığının səviyyəsi və dinamikası ilə əlaqədardır. Aqrar sektorda əmək məhsuldarlığının yüksəldilməsi perspektivlərinə gəldikdə isə onun proqnozları yaxın və orta perspektivdə kifayət qədər ciddi irəliləyişlərin olacağından xəbər verir. Gözlənilən müsbət dinamika:

- adambaşına məhsul istehsalının həcminin artmasında;
- məhsul vahidinə xərclərin azalmasında;
- məhsul son istehlakçıya çatdırılana qədər yol verilən itkilərin minimuma endirilməsində və s. ifadə olunacaqdır. Aqrar sektorda haqqında danışılan hədəflərə nail olunmasına yönəlmiş fəaliyyətlərdə aşağıdakı istiqamətlər prioritet olmalıdır:
- kənd yerlərində məşğulluğun bütün əsas növlərində, habelə özünüməşğulluqda innovasiyalı fəaliyyətin və innovasiyaya açıqlığın təşviq edilməsi;
- aqrar regionların investisiya cəlbediciliyinin yüksəldilməsi;
- özünüməşğul subyektlərlə (mikrosahibkarlarla) ərazidə fəaliyyət göstərən iri müəssisələrin əlaqələrinin yaradılmasına dəstək verilməsi;
- klasterial təşəbbüslər, aqrar fəaliyyətin şaxələndirilməsi və digər səbəblərdən yaranan yeni fəaliyyət imkanları barədə məlumatlandırmanın rəqəmsal texnologiyaların tətbiqi ilə səmərəli təşkili;
- maliyyəyə çıxışın asanlaşdırılması, o cümlədən kreditlərin əlyetənliyinin və aqrar sığorta sisteminin təkmilləşdirilməsinin dəstəklənməsi;
- yaşıl aqrar iqtisadiyyatın, habelə aqroturizmin inkişafının dəstəklənməsi.

Məlumatlandırma mərhələsi səmərəli özünüməşğulluğun formalaşmasının ilkin

addımlarından biri hesab olunur (4, s.9). Bir məsələni xüsusilə qeyd etməyi zəruri sayırıq. Urbanizasiyanın onilliklər ərzində davam edən arzuolunmaz yüksək tempi bir çox aspektlərdə problemlər yaratmışdır. Aqrar məşğulluğun və özünüməşğulluğun urbanizasiya proseslərinin nəticəsində məruz qaldığı təsirlər bu baxımdan xüsusi qeyd edilməlidir. Son dövrlərdə urbanizasiya proseslərinin sürətini azaldan ilkin meylilər müşahidə olunur. Belə ki, pandemiyanın və ekoloji böhranın davamlılığı, xüsusilə urbanizasiya zonalarında kəskinləşməsi, su qıtlığı və bu kimi bir sıra amillərin böyük şəhərlərdə və sənaye mərkəzlərində məskunlaşmanı ləngidəcəyi gözlənilir. Əlbəttə, böyük şəhərlərdə və sənaye mərkəzlərində məskunlaşmanı ləngidən amillər aqrar fəaliyyətə potensial marağı nəzərəçarpacaq dərəcədə artırsa da, bu meyl heç də aqrar istehsalın rentabelliyini yüksəltmək iqtidarında deyildir. Bununla belə, həmin amillər tədricən müasir kənd həyat tərzinin üstünlükləri və burada iqtisadi fəallığın alternativsizliyi faktını əyaniləşdirəcəkdir. Ölkənin torpaq resurslarından istifadə vəziyyəti yaxşılaşacaqdır. Belə ki, şoran torpaqların yuyulması prosesinin əhatə dairəsi tədricən genişlənəcək, müasir irriqasiya sistemi qurulacaqdır. Məhdud imkanlardan səmərəli istifadə hesabına su təchizatı yaxşılaşacaq və sudan istifadə səmərəliliyi yüksəldiləcəkdir. Bu əsassız optimizm deyil, alternativsizliyin qəbul edilməsi və bu istiqamətdə dövlətin başladığı sistemli tədbirlərin ilkin nəticələrindən bəhrələnən fikirlərdir. Aqrar sektorun inteqrasiya potensialı autsorsinq imkanlarını genişləndirə bilir. Əlbəttə bu meyl bilavasitə kənddə özünüməşğulluğa təsir etməyəcəkdir.

Bununla belə, autsorsinq kənd yerlərində əmək bazarına da təsirsiz qalmayacaq. Milli aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivlərinə təsir edən mühüm amillərdən biri kənd icmalarının formalaşma səviyyəsidir. Xüsusilə icmadaxili əmək bölgüsünün kollegial əsasda həyata keçirilməsi kənd yerlərində işaxtaranlara bacarıq və vərdiş amilləri əsasında üstünlük verilməsini təmin edə bilər. Başqa sözlə, emalaqədərki işlər, ilkin emal, resurslarla təminata xidmət, yabanı bitkilərin toplanması və qurudulması, torpaq analizi prosesində yardımçı işlər və bir sıra digər fəaliyyət sahələrində özünüməşğulluq dairəsinin arzuedilməz dərəcədə xırdalanmasının qarşısı məhz icmadaxili koordinasiya sayəsində alına bilər. İnformasiya cəmiyyətinin formalaşması və inkişafının orta perspektivə rəqəmsal iqtisadiyyatın kənd yerlərində inkişaf tempini yüksəldəcəyi gözlənilir. Rəqəmsal texnologiyalardan istifadə idxalın əvəzlənməsi və ixracın təşviqi imkanlarını üzə çıxaracaqdır. Onların reallaşdırılması kənd əhalisinin işgüzar fəallığından və rəqəmsal texnologiyaların tətbiqi üçün onlara göstərilən dəstəkdən asılı olacaqdır. Bu baxımdan özünüməşğullara kömək məqsədi ilə Rusiya Federasiyasında ölkəni əhatə edən elektron ödəniş sistemləri və xüsusilə öyrədici veb-resursların hazırlanması istiqamətində atılan addımlar diqqətəlayiqdir. Belə ki, ölkənin "ən böyük maliyyə qurumu özünüməşğullara kömək etmək üçün bir sıra vasitələr hazırlamışdır. Bunlar əsasən özünüməşğullara "Sberbank online" vasitəsilə bütün ölkə miqyasında əməliyyatlar aparmağa kömək edən onlayn xidmətlərdir. Xüsusilə çekvermə üçün avtomatik prosedur, pulsuz onlayn təqvim və s. Bundan əlavə, veb-resurslarda özünüməşğulların öyrədilməsi üçün ayrıca bir bölmə hazırlanmışdır" (5). Haqqında danışılan yanaşmalar ilkin addımlar olsa da, zənnimizcə perspektivli sayılmalıdır. Qazaxıstanda 2017-ci ildə qəbul edilmiş "Rəqəmsal Qazaxıstan" Dövlət Proqramında öznüməşğulluğun "müştərək istehlak iqtisadiyyatı" ilə əlaqəli inkişafı, o cümlədən rəqəmsal mühitdə onların iqtisadi fəallığının dəstəklənməsi imkanlarının reallaş-

dırılması nəzərdə tutulur (6). Göründüyü kimi, burada daha irəli gedərək fərdi xərcləri azaltmağa yönəlmiş yeni çağırışlara vahid rakursda yanaşma variantına üstünlük verilmişdir.

Qabaqcıl xarici təcrübədə ölkələr özünüməşğulluğun inkişafı və dəstəklənməsi üzrə milli proqramları öz sosial-iqtisadi şəraitləri daxilində daim təkmilləşdirirlər (7, s. 179-181). Həmin proqramların tərtibi və icrası sürətlə dəyişən iqtisadi və institusional mühitin tələblərini nəzərə almalıdır. Digər postsovet məkanı ölkələrində olduğu kimi, Azərbaycanda da aqrar sektorda özünüməşğulluğun inkişafının perspektiv parametrlərinin müəyyən edilməsi xüsusilə etibarlı proqnozların hazırlanması prosesində qarşıya çətinliklər çıxır. İlk növbədə onu qeyd edək ki, proqnozlaşdırma üçün zəruri olan verilənlər bazası yetərincə deyil. Digər problem qismində kənd yerlərində qeyri-formal məşğulluğun leqallaşdırılması proseslərindəki nəzərəçarpacaq ləngimələr qeyd edilə bilər. Bununla belə, ölkəmizdə özünüməşğulluğun inkişafının bəzi perspektiv meyllərini aşkar etmək və yüksək ehtimalla onların davamlı olacağını güman etmək olar. Birinci meyl zənnimizcə, kənd yerlərində özünüməşğulluğun bilavasitə dövlətin himayəsindən asılı olmasıdır. 2017-2020-ci illərin ilkin statistikası bunu söyləməyə əsas verir. Aqrar sektorda özünüməşğulluğa 2016-2017-ci illərdə cəmi 1281 nəfər cəlb olunmuşdusa, 2018-ci ildə bu rəqəm 7267 nəfər, 2019-cu ildə isə 10352 nəfər təşkil etmişdir. Əldə edilən nəticələr bilavasitə özünüməşğulluq proqramının icrasının nəticələridir.

Azərbaycan Respublikası Prezidentinin ölkənin həssas əhali qruplarına, o cümlədən onların kənd yerlərində özünüməşğulluğuna bankların kömək etməsini nəzərdə tutan sosial məsuliyyətin bölüşdürülməsi barədə humanist təşəbbüsü artıq öz ilkin müsbət nəticələrini göstərməkdədir. Haqqında danışılan bu mühüm təşəbbüsün reallaşdırılması məqsədi ilə görülən tədbirlər sırasında bu tədbir xüsusi olaraq qeyd edilməlidir: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Mərkəzi Ban-kı və Azərbaycan Banklar Assosiasiyası arasında əməkdaşlığa dair imzalanan memorandumun icrası istiqamətində fəal iş aparılır. İndiyə qədər proqramın icrasına 21 yerli bank qoşulub. Bu günə qədər banklar 300-ə yaxın şəxs seçərək onlardan 102-nə sahibkarlıqla məşğul olmaq üçün avadanlıq verib" (8). Burada bir məqamı da qeyd etməliyik. Birbaşa dövlət yardımı olmadan (dövlətdən müvafiq aktivlər almadan) qeyri-formal məşğulluğun leqallaşdırmasının kütləviliyini gözləmək çətindir. Yüksək ehtimalla demək olar ki, aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivləri həlledici dərəcədə özünüməşğulluq proqramının yerinə yetirilməsi nəticələri ilə şərtlənəcəkdir. Milli aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivləri nəzərdən keçirilərkən bu məqam diqqətdən kənarda qalmamalıdır.

**Aqrar sektorda özünüməşğulluq perspektivləri: məşğulluq siyasəti və rəqəmsal mühitin üstünlükləri**

Aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivləri qeyd edildiyi kimi, dövlətin məşğulluq siyasətinin perspektivləri ilə əlaqədardır. Bu baxımdan özünüməşğulluq üçün yaradılan iqtisadi və institusional mühitin xarakteristikaları mühüm əhəmiyyətə malikdir. Eyni zamanda aqrar sektorda və ümumilikdə kənd ərazilərində özünüməşğulluğun inkişaf perspektivlərinin müəyyən edilməsində vergi sisteminin rolu da diqqəti cəlb edir. Xarici təcrübədə bu olduqca aktual məsələ hesab edilir. Odur ki, özü-

nüməşğuılluğun vergi rejiminin təkmilləşdirilməsinə dair xarici mənbələrdə çox sayda və kifayət qədər fərqli yanaşmalar tövsiyə olunur. Özünüməşğullar üçün, o cümlədən transaksiya vergisinin tətbiq olunması, yəni pul daxilolmalarından faiz ödənməsi, daxilolmalar baş vermədikdə heç bir vergi öhdəliyinin əmələ gəlməməsi variantı təklif olunur. Digər təklif özünüməşğullar üçün ilin yekununa görə birdəfəlik vergi tutulmasının tətbiqidir. Patentin satın alınması şəkilində (vergi dövrünün başlanmasına qədər) vergi tutulması təklifi də var. Əlbəttə, bütün hallarda özünüməşğullar üçün vergi rejiminə maksimum şəffaflıq, sadəlik və rahatlıq tələbləri qoyulur.

Azərbaycan Respublikasının vergi məcəlləsində özünüməşğul statusuna yaxın mikrosahibkarlıq subyektləri üçün gəlirlərin 75%-nin vergidən azad edilməsi nəzərdə tutulur. Ölkənin aqrar sektorunda davam edən vergi tətilləri burada çalışan özünüməşğullara da aiddir. Bu və digər səbəblərdən ölkəmizdə özünüməşğulluğun vergi rejiminin formalaşdırılması və təkmilləşdirilməsi məsələsi hələ ki, ilkin təşəkkül mərhələsindədir. Natamam informasiya şəraitində məşğulluğun bir növü kimi kənd yerlərində özünüməşğulluğun parametrlərinin müəyyən edilməsi üçün iqtisadi-riyazi modellərdən istifadə variantı tövsiyə olunur. Məşğulluğun proqnozlaşdırılmasında reqressiya modelləri müəyyən üstün cəhətlərə (tətbiq mərhələsində sadəlik, çeviklik, təhlil və proqnozlaşdırmada kifayət qədər oxşar yanaşmalardan istifadə imkanı) malikdir. Əməyin mövsümilik amilini nəzərə almaq üçün Holt Vinters modelini (üçqat eksponentsial hamarlaşdırma modeli) tətbiq etmək mümkündür. Bununla belə, qeyd edilən modelin rəqəm reallaşdırılmasının özünüməşğulluq proqramının nəticələrini əhatə edən verilənlər əsasında həyata keçirilməsini məqsədəuyğun hesab etmirik.

Aqrar sektorda məşğulluqda özünüməşğulluğun xüsusi çəkisinin müəyyənləşdirilməsinə gəldikdə isə etiraf etməliyik ki, mövcud verilənlər vəziyyəti az və ya çox dərəcədə xarakterizə etməyə imkan vermir. İslahatlar təcrübəsinə və ortaq iqtisadi tarixə malik olduğumuz ölkə kimi Rusiya Federasiyasının müvafiq statistikasına nəzər salaq. Rusiya Federasiyasının 2017-ci ilə olan rəsmi statistikasına görə, özünüməşğulların 44,6%-i kənd yerlərində yaşayır. Həmin insanların isə 35,6%-i kənd təsərrüfatında məşğuldur (9). Postsovet məkanı ölkələrinin ən yeni iqtisadi tarixinin müştərəkliyi ilk baxışda Azərbaycanda da oxşar nisbətlərin ola biləcəyi fikrini doğurur. Sonrakı araşdırmalar isə bu mülahizənin həqiqətəyaxın olmadığını göstərdi. Belə vəziyyət ilk növbədə müqayisə edilən ölkələrin aqrar sektorunda özəl bölmənin payı və onun dinamikası, həyata keçirilmiş torpaq islahatının xarakteri və nəticələri ilə şərtlənmişdir.

Aqrar sektorda özünüməşğulluğun inkişafının perspektiv parametrlərinə münasibət bildirmək üçün informasiya mənbəyi kimi ölkədə həssas əhali kateqoriyasının dinamikası və strukturu informasiyasından istifadə zənnimizcə, çox böyük əməktutumlu və mürəkkəb bir işdir. Məsələ ondadır ki, bu halda insanlar gəlirlərin və təhsilin səviyyəsinə, habelə öz işini qurmaq üçün malik olduğu xüsusi vəsaitin miqdarı (potensial girov əmlakın dəyəri) və s. əlamətlərə görə təsnifləşdirilməlidirlər. Özü də bu təsnifat şəhərə köçmək, müvəqqəti qazanc dalınca getmək və sair kimi niyyətlər də nəzərə alınmaqla aparılmalıdır. Sadalanan və digər verilənlər yüksək ehtimalla yalnız formalaşmış Böyük Verilənlər (Big Dates) mövcud olduqda məqbul reprezentativliyə malik ola biləcəklər. Milli aqrar sektorun inkişafı əmək bazarında rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasından həlledici dərəcədə asılıdır. Hazırda özəl kənd təsər-

rüfatı istehsalı subyektlərində əsasən bacarıq və vərdişlərini təcrübədə qazanmış insanlar çalışırlar. Onların innovasiyalara həssaslığı, inteqrasiya və kooperasiyaya hazırlıq səviyyəsi arzuedilən səviyyədə deyil. Odur ki, Azərbaycanda "2025-ci ilədək qeyri-formal və informal təhsil vasitəsilə əldə edilən səriştələrin tanınması sistemini formalaşdırmaq" nəzərdə tutulur (3, 3.3.13 alt bölməsi). Məlumat üçün bildirək ki, müvafiq işlərə 2017-ci ildən başlanmışdır. Dinamik inkişaf edən iqtisadi və sosial mühitdə kənd yerlərində və aqrar sektorda ixtisaslı kadrlara ehtiyacın müəyyənləşdirilməsi məsələsi daim gündəlikdə olmalıdır. Bu məqsədlə rəqəmsal texnologiyaların tətbiqi ilə monitorinq və proqnozlaşdırma sisteminin qurulması məqsədəuyğundur. Odur ki, "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda "əmək bazarının təhlili və ixtisaslı kadrlara, həmçinin müxtəlif bacarıqlara ehtiyacın müəyyənləşdirilməsinə imkan verən monitorinq və proqnozlaşdırma sisteminin formalaşdırılması" hədəf kimi qarşıya qoyulmuşdur (3, 4.6.6 alt bölməsi). Yuxarıda qeyd edilən və digər səbəblərdən aqrar sahənin ali təhsilli mütəxəssislərinin xidmətlərinə olan faktiki tələbi gözlənilən səviyyədə deyildir. Milli aqrar sektorda həyata keçirilən sistemli tədbirlərin innovasiya fəallığını yüksəldəcəyi və sahənin ali təhsilli mütəxəssislərinin xidmətlərinə tələbi dəstəkləyəcəyi nəzərdə tutulur. Haqqında danışılan tədbirlərin həyata keçirilməsi, yüksək ehtimalla aqrar sektorda məşğulluğun strukturunun yaxşılaşmasına və kənd yerlərinin özünüməşğulluq potensialının inkişafına zənnimizcə, ciddi müsbət təsir edəcəkdir. Aqrar sektorda özünüməşğulluq subyektlərinin sosial portretinin yaradılması istiqamətində aparılmış tədqiqatların nəticələrindən görünür ki, bu subyektlər arasında gənclərin xüsusi çəkisi kifayət qədər yüksəkdir.

Odur ki, gənclərin kənd təsərrüfatı əməyinə cəlb edilməsi, onların kənd yerində özünüməşğulluğu perspektivlərinin müəyyən edilməsi xüsusi diqqətə layiq məsələdir. Gənclərin kəndə və kənd təsərrüfatı əməyinə marağının ümumbəşəri meyarlar baxımından zəruri səviyyədə olmaması demək olar ki, ötən əsrin ikinci yarısından başlayaraq kəskinləşməkdə olan qlobal problemdir. Aqrar fəaliyyətə gənclərin marağının aşağı səviyyəsi dünyanın əksər ölkələrində, o cümlədən inkişaf etmiş ölkələrdə də müşahidə edilir. Hətta Avropa Birliyində də bu vəziyyət hazırda kifayət qədər ciddi problem hesab edilir. "Avrostat"ın məlumatlarına görə, Avropa Birliyində 2016-cı ildə fermaları idarə edənlər arasında yalnız hər on nəfərdən birinin yaşı 40-dan azdır (10). Artıq qeyd edildiyi kimi, ölkəmizin kənd təsərrüfatında layiqli əməyin təmin edilməsi üçün görülmüş işlərin ilkin müsbət nəticələri özünü göstərir. Aparılmış sorğular belə deməyə əsas verir ki, məhz layiqli əmək şəraitinin yaradılması gənclərin aqrar sektorda özünüməşğulluğa cəlb edilməsinin təməl şərti rolunda çıxış edə bilər.

Odur ki, bu istiqamətdə görülən işlərin daha geniş miqyasda aparılması, kənd yerlərində layiqli əməyin bütün mümkün sahələrdə təmin edilməsi tədbirləri davamlı olmalıdır. Kənd yerlərində məşğulluğun digər növlərindən fərqli olaraq özünüməşğul subyektlərə imtiyazlar verilməsi (vergi güzəştlərindən başqa) mexanizminin işlənib hazırlanması prosesi sürətləndirilməlidir. Gənclərin yeniliklərə, orijinallığa daha həvəsli olduqları faktı da nəzərə alınmalı, onlara innovasiyalı fəaliyyət üçün əlverişli iqtisadi-hüquqi şərait yaradılmalıdır. Onlar tərəfindən edilən yeniliklər aqrar inkişaf könüllüləri tərəfindən öyrənilməli və geniş miqyasda tanıdılmalıdır. Xüsusilə rəqabətqabiliyyətli rəqəmsal aqrar texnologiyaların tətbiqi sahəsində yeniliklərə başlanğıcda hüquqi, in-

formasiya və metodik dəstək verilməlidir. Hazırda aqrar sektorda rəqəmsallaşmanın əsası hesab olunan rəqəmsal platformalar sahənin əsas xüsusiyyətləri nəzərə alınmaqla tətbiq edilməlidir. Bu baxımdan xüsusilə kənd təsərrüfatı fəaliyyəti məkanının pərakəndəliyi məsələsi ön planda olmalıdır. Rəqəmsal infrastrukturun inkişafında ərazi fərqlərinin kəndin xeyrinə olmaması faktı nəzərə alınmalı, bu məsələdə təşəbbüskar gənc fermerlərə zəruri şərait yaradılmasında kömək göstərilməlidir. Aqrar sektorda innovasiyalı məşğulluq və özünüməşğulluq üçün perspektivli istiqamət təbii resurslardan qənaətcil istifadənin təmin edilməsidir. Araşdırmalar göstərir ki, innovasiyalı resursqoruyucu aqrar istehsal texnologiyalarının yüksək nəticəyönümlülüyü böyük şəhərlərə yaxın ərazilərdə əldə edilir. Bunun əsas səbəbi ilkin araşdırmalardan göründüyü kimi, bazara yaxınlıqdır. Kənd və şəhər əhalisinin gəlirləri arasında fərqlərin azalması ölkə əhalisinin gəlirlərinin artması fonunda baş verir. Bununla belə, kənd və şəhər əhalisinin gəlirləri arasında fərqlərin azalması tempi qənaətbəxş deyildir. Aqrar profilli təhsil almış gənclərin xeyli hissəsi üçün bilavasitə kənd yerlərində mütəxəssis və ya sahibkar kimi çalışmaq motivi zəifdir. Belə vəziyyət gənclərin kənddə və kənd təsərrüfatında çalışmaları üçün dövlətin əlavə tədbirlər görməsinə, dövlət büdcəsi vəsaitlərinin əlavə olaraq xərclənməsinə gətirib çıxarır. Dövlətin gənclər siyasətinin prioritetlərinin reallaşmasında ictimai birliklərin fəallığının dəstəklənməsinə diqqətin artırılması bu işə mühüm töhfə verə bilər. Bu baxımdan Aqrar İnkişaf Könüllüləri hərəkatına rəvac verilməsi təqdirəlayiqdir. Aqrar təhsildə də son illər atılan ciddi addımlar nəticəsində əldə edilən müsbət nəticələrlə yanaşı təxirə salınmadan həll edilməli problemlər qalmaqdadır. İlk növbədə bu, aqrar profilli ixtisaslara qəbul imtahanlarında az bal toplamış xeyli tələbənin qəbul olunmasıdır. Tələbələrin təcrübə keçmələri üçün də ciddi çətinliklər qalmaqdadır. İri kənd təsərrüfatı müəssisələri ali təhsilli aqrar sahə mütəxəssislərinin öz tələblərinə uyğun hazırlamaq işinə III kursdan başlayaraq seçdikləri tələbələrə təqaüd verməklə başlamışlar.

Bu prosesin daha geniş vüsət alması zəruridir. Aqrar sektor üçün müxtəlif profilli ali təhsilli mütəxəssislərin hazırlanmasında, ölkəmizdə nüfuzlu xarici universitetlərlə tərəfdaşlıq amili daha çox rol oynamağa başlamışdır. Bu isə zənnimizcə, qısa zaman ərzində milli aqrar sektorun rəqabət qabiliyyətinin yüksəldilməsinə öz töhfəsini verəcəkdir. Artıq qeyd edildiyi kimi, yuxarıda göstərilən amillərin təsirinin kəmiyyətcə zəruri dəqiqliklə qiymətləndirilməsi hazırda demək olar ki, qeyri-mümkündür. Odur ki, milli aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivlərini müəyyən etmək üçün onu ekspert qiymətləri əsasında proqnozlaşdırmaq lazım gəlir. Özünüməşğulluğun aqrar sahədə dəstəklənməsi formal məşğulluğu təmin edirsə, kənd ərazilərinin dayanıqlı inkişaf meyarlarına uyğundur. Kənd həyat tərzinin cəlbediciliyinin artırılmasında özünüməşğulluğun da əhəmiyyətli potensialı vardır. Bu isə məlum olduğu kimi, aqrar sahənin dayanıqlı inkişafının mühüm amilidir. Aqroturizmin və ekzotik kənd turizminin inkişafında formal özünüməşğulluğun artan rolu özünü qabaqcıl təcrübədə göstərməkdədir. Bu baxımdan ilk növbədə ekoloji təmiz məhsul istehsalının genişlənməsi göstərilə bilər. Təbii və təzə ərzaq məhsullarına turistlərin artan marağı kənd yerlərində özünüməşğul subyektlərin həmin məhsuluna tələbi artıra bilir. Azərbaycanda həyata keçirilən özünüməşğulluq proqramı kənddə formal və dayanıqlı məşğulluğun mövqeyini möhkəmləndirməyə yönəlmişdir. Bu isə nəticə etibarilə milli aqrar sektorun

dinamik və dayanıqlı inkişafı perspektivlərini genişləndirir. Özünüməşğulluğun proqram-məqsədli inkişafının gələcəkdə sinergetik effekt yaratması onun şəffaflığından, ilkin və aralıq nəticələrinin tanıdılmasından və əlbəttə, innovasiyalı yanaşmaların üstünlük təşkil etməsindən asılı olacaqdır.

Kənd ərazilərində özünüməşğulluq potensialının reallaşdırılması aqrar sahənin dayanıqlı inkişafının mühüm amili ola bilər. Hazırda Azərbaycanda həyata keçirilən özünüməşğulluq proqramı kənddə formal və dayanıqlı məşğulluğun mövqeyini möhkəmləndirməyə yönəlmişdir. Kənd ərazilərində özünüməşğulluğun proqram-məqsədli inkişafının gələcəkdə sinergetik effekt yaratması innovasiyalı yanaşmaların şəffaflığından, ilkin və aralıq nəticələrinin tanıdılmasından asılı olacaqdır. Aqrar sektorda özünüməşğulluğun inkişaf perspektivlərinə təsir edən mühüm amil kimi icmadaxili əmək bölgüsünün kollegial əsasda həyata keçirilməsi kənd yerlərində işaxtaranlara bacarıq və vərdiş amilləri əsasında üstünlük verilməsini təmin edə bilər. Özünüməşğulluq subyektləri arasında gənclərin xüsusi çəkisi yüksək olduğuna görə onlara xüsusi yanaşma məqsədəuyğundur. Kənd yerlərində özünüməşğul subyektlərə imtiyazlar verilməsi mexanizminin işlənib hazırlanması prosesi sürətləndirilməli, rəqəmsal aqrar texnologiyaların tətbiqinə hüquqi, informasiya və metodik dəstək verilməlidir.

## İstifadə olunmuş ədəbiyyat:

1. Self-Employed Persons Program.
http://www.russiantoronto.com/immigration/imminfo-sempl.asp

2. “The Salary & Conditions” 2017. www.prospects.ac.uk/links/Occupations

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş 2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası.

4. New Enterprise Allowance. Briefing paper. Number 05878, 9 June 2017. 11 p.

5. Эксперимент для самозанятых: современность и перспективы.
https://xn90aifddrld7a.xn--p1ai/novosti/news/eksperiment-dlyaamozanyatykhsovremennost-i-perspektivy

6. Государственная Программа "Цифровой Казахстан". Утверждена постановлением Правительства Республики Казахстан 12 декабря 2017 года, № 827.

7. "The Partial Renaissance of the Self-Employed", OECD Employment Outlook, Chapter 5, OECD (2000), Paris, Table 5.15. pp. 179-181.

8. Azərbaycanda özünüməşğulluq layihəsinə - 21 Bank qoşulub.
https://fed.az/az/bank/azerbaycanda-ozunumesgulluq-layihesine-21-bank-qosulub-82814.

9. Самозанятые в России - кто они? Сценарии и прогнозы.
https://www.finam.ru/analysis/forecasts/samozanyatye-v-rossii-kto-oni-20180607-132744/

10. Farmers and the agricultural labour force – statistics. Data extracted in November 2018. https://ec.europa.eu/eurostat/statistics-explained/index.php/Farmers and the agricultural labour_force -_statistics